# SABİR ŞİRVANIN "SÖZ ÖMRÜ"



**Şəddat CƏFƏROV**

***"Bakı mətbəəsi"nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü***

***(Əvvəli ötən sayımızda)***

Mən, əlbəttə, çox təəssüf edirəm ki, Qarabağı az gəzmişəm. Taleyim elə gətirib ki, hətta Şuşada da olmamışam. Ancaq heç kimsə mənimlə mübahisə edə bilməz ki, Şuşanı məndən yaxşı tanıyır. Bu da o deməkdir ki, mən Şuşa haqqında yazılanları həmişə izləyirəm. Şuşa ilə Qarabağla bağlı çoxlu kitablar nəşr etmişəm. Qarabağdan, Cəbrayıldan və Qarabağın digər bölgələrindən olan neçə-neçə sənətkarlarla yaxın təmasdayam, ünsiyyətdəyəm. Onlarla sıx münasibətlərim bu gün də davam edir. Elə buradaca onu qeyd etmək istəyirəm ki, heç vaxt görmədiyim Xudafərini, Araz sahillərini, hətta Cəbrayıldan yuxarıda yerləşən dağlar qoynundakı Yuxarı Xələflini bir dəfə də olsa görməsəm belə, çox yaxşı tanıyıram. Xələfli ilə bağlı çoxlu kitablar nəşr etmişəm. Ona görə də Xələfli kəndi, onun təbiəti, yerləşdiyi mühit mənə çox doğmadır. Çünki Xələflidən olan ziyalılarla əlaqələrim, özü də canlı əlaqələrim bu gün də davam etməkdədir. Bu yaxınlarda Əhməd Fərhadın kitabını çap etdim. Sabir Şirvan da bizim daimi müəlliflərimizdən biridir. Onun da kitabları həmişə bizim mətbəədə həvəslə, hörmətlə qarşılanıb. Sabirin kitablarını oxuduqca mövcud mühitimizdə tanınan Xələfli ziyalıları ilə mənəvi dostluq əlaqələrim daha da qüvvətlənir. Özümü də bir Xələfli sakini kimi duyuram. İndi qoy oxucular özləri desinlər. Kim daha çox Xələfli sakinidir? Əgər mən Sahib Bəylər oğlu Əhmədovu, onun dünyaca məşhur olan alim oğullarını öz övladlarım kimi sevirəm və yüksək dərəcədə qiymətləndirirəm. Xələflinin təqdimində onun doğulub böyüdüyü Xələfli kəndini xarakterizə edən qeydlər sanki Sabir Şirvanın düşüncələrinə daha da aydınlıq gətirir.

*"Xələflidən ilk dəfə elmə ayaq açan Əhmədov Sahib Bəylər oğlu olub. Onun iki oğlu da dünyanın görkəmli riyaziyyat alimləri kimi ABŞ-ın nüfuzlu universitetlərində çalışmaqdadırlar. Azər və Anar Əhmədov qardaşları. Onlar Azərbaycana yüksək elmi nailiyyətləri ilə şöhrət gətirdikləri kimi Xələfli adını da ucaldıblar. Xüsusilə Azər Əhmədov həm də böyük ədəbiyyat adamıdır. Ədəbiyyatda postmodern cərəyanın Amerikada və Avropada tanınan nümayəndələrindən biridir. Bunları niyə xatırlatdım? Onsuz da kənddə hamı bir-biriylə qohumdur, bir-birinə doğmadır. Amma Sabir Şirvanın bu ailə ilə daha sıx doğmalıq və qohumluq əlaqələri var. Hər dəfə onlar haqqında söhbət düşəndə digər xələflilərimiz kimi Sabir də doğma Xələflinin timsalı kimi Azər və Anar Əhmədov qardaşları ilə fəxr etdiyini bildirir. Xələfli kəndinin kifayət qədər zəngin mənəvi mühiti görkəmli ziyalıların təbiətində özünü təsdiq etməkdədir".* Onu da deyim ki, bu qeydlərlə mən sanki Qarabağı birər-birər gəzirəm, Cəbrayılın Xan Çinarını ziyarət edirəm. Mənə doğma olan insanların, mənim yaxşı tanıdığım cəbrayıllı qələm sahiblərinin, Yusif Dirilinin, Nəriman Mahmudun, hələ lap uzaq keçmişdən yaddaşımda yaşayan Sabir Süleymanovun, Sabir Əhmədlinin, Kamil Vəlinin... digərlərinin izi qalan yerləri elə bu qeydlərlə ziyarət edirəm. Amma hər halda yazı o vaxt canlı olur ki, oxucunu da özünə cəzb edir. Elə bu yerd-yurd gəzintilərinin özü də mənim üçün canlılığın təzahürüdür.

Sabir Şirvanın *"Söz ömrü"* kitabından əsas obraz kimi keçən adlardan biri də mənim üçün Yusif Dirilidir. Əli Rza Xələflinin Sabir Şirvanla bağlı *"Kredo"* qəzetində dərc olunmuş qeydlərindən Yusif Dirili ilə bağlı məqamları da oxucularıma çatdırmaq istərdim: *"Sabir Şirvanın ədəbi taleyində yaxın və sıx yaradıcılıq əlaqələrində olduğu görkəmli sənət adamları ilə yanaşı tarix elmləri üzrə fəlsəfə doktoru, tədqiqatçı-publisist Yusif Dirilinin xüsusi rolu, əhəmiyyətli dərəcədə təsiri olmuşdur. Bunu özü də etiraf edir: "Sonda bildirmək istəyirəm ki, bir çox mövzular kimi, bu ktiabın da yazılıb ərsəyə gəlməsi ideyasının toxumlarını, hər zaman yaxın münasibətdə olduğum, tanınmış şair-jurnalist, gözəl insan Yusif Dirili beynimə səpib; - "Bu gündən sabaha etibar yoxdur, keçdiyin həyat yolunu qələmə al"* - demişdi. Buna görə ona təşəkkürümü bildirirəm! Kitabın necə təsirə malik olduğunu, hansı dəyərə layiq tutulduğunu isə diqqətli oxucuların ixtiyarına buraxıram. Qərəzsiz oxucu rəyi ən dəqiq mövqe, ən həqiqi meyardır. Müəllifin bu haqqını heç kim onun əlindən ala bilməz. Ömrün xoşbəxt çağlarında, asudə vaxtlarda yazıb-yaratmaq necə də gözəldir. Qoy Allah həmişə insanlarımıza sevincli günlər qismət etsin". Nə deyirəm? Mən də istəyirəm ki, insanlar yer-yurd sevincləri ilə istəklərinə çatsın.

Əslində elə Sabir Şirvan da həm nəsrində, həm də yaradıcılığının digər qanadlarında özü də bu istəyə can atır, öz oxucularını da bu istəyə doğru uçmağa çağırır. Əlbəttə, onun nəsrinin ayrı-ayrı müəlliflərin təqdirində göründüyü kimi, cəlbedici, cazibəli motivi onun poetik ruh daşıyıcısı olduğunun göstəricisidir. Bütün hallarda Sabir Şirvan şairdir, onun şairliyi haqqında da ayrıca danışmaq, ayrıca mülahizə yürütmək, zənnimcə, çox ədalətli olardı.

Sabir Şirvanı şair kimi xarakterizə edən müəlliflər çoxdur, amma mənim üçün o müəlliflər sırasında ən önəmli yeri Əli Rza Xələfli tutur. O, Sabir Şirvan şeirinin poetik güzgüsünü belə yaradır: *"Sabir Şirvanın şeirlərində klassik Azərbaycan aşıq poeziyasının nəsihət tərzi də müxtəlif yönümlərdən görünür. Ancaq həyati müşahidələrin nəticəsi kimi görünən bu nəsihət tərzi, quru nəsihətçiliyə çevrilmir. Şeirin ümumi ahəngində ruhları oxşayan, könüllərə rəvanlıq, ahəngdarlıq gətirən keyfiyyət kimi üzə çıxır.*

*Sonda görünərsən sən necə varsan,*
*Ağlına aynadır hər kəs özünün.*
*İstəsən bəla ver, kədərə çulğa,*
*İstəsən dərdin al gündə yüzünün.*

*Kədəri ümmandır, sevinci çox az,*
*Hər tale bir sirrdir, üzdən oxunmaz.*
*Min bəla gəlsə də, qurda toxunmaz,*
*Qadası qoynunda gəzər quzunun.*

*Sözü zərrəbinlə el gözü seçər,*
*Hər kəsin donunu boynuna biçər.*
*Gödəyin könlündən allahlıq keçər,*
*Ağlı topuğunda olar uzunun.*

*Bu şeir üç bəndlikdir. Şeiri qırmadan, hissələrə ayırmadan, bütöv şəkildə ona görə təqdim etdim ki, misraların ruhundan duyulan qaynağın kökü daha aydın görünsün.*

*Dədə Qurbaninin, Abbas Tufarqanlının, Xəstə Qasımın... Aşıq Alının yaradıcılığındakı cəmiyyətə cavabdehlik missiyası, insanı qoruma hissi bu şeirdə qabarıq görünür. Gödəyin, ya uzunun təbiət keyfiyyəti qüsur kimi yox, xəbərdarlıq kimi üzə çıxır. Hərçənd ki, elə bu motivdə eldən gəlmə qənaət də Sabir Şirvanın şeirində özünəməxsusluqla görünür. Sabir Şirvan bir qərinədir ki, həsrət odunda yanır. Əlbəttə, barmağı tazanə tutan, əli qələm tutan hər kəs bu odda yanıb. Lap elə tazanəsizlər də, qələmsizlər də yanıb. Amma Sabirin yanmağı sözündə görünərək yanmaqdır".* Zənnimcə, bəs eləyir bu qeydlər; Sabir Şirvanın publisistikada da, poeziyada da kimliyini görmək üçün.

Hər bir şair doğulub-böyüdüyü yerlə, məkanla boy atır. Öz mühitinin başqalarına məlum olmayan tərəflərini elə yurdu ilə müvazi olaraq təqdim edə bilir. Yerini, yurdunu sevməyən şairin yəqin ki, heç vətənindən danışmaq haqqı da olmaz. Bu mənada Sabir Şivan Cəbrayıl rayonunun Xələfli kəndində doğulub, böyüyüb. Bu torpağın övladı kimi boy atıb. Demək, onun yaddaşında əsas yer-yurd obrazı da elə Qarabağdır. Və əgər belə demək mümkünsə, həm də Cəbrayıldır deməliyik.

Sabir Şirvanın bir neçə kitabını nəşr etmişəm. Onun kitablarının əsas obrazı kimi Cəbrayıl həmişə obyektivdə qabarıq görünüb. Mən də elə bu yanaşma ilə Sabir Şirvanı cəbrayıllı olaraq tanıdım. Onun şeirlərini oxuduqca dostum Əli Rza Xələflidən aldığım məlumatların nə qədər doğru olduğuna bir daha inandım.

Sabir Şirvan düşmənlə barışmaz bir mövqedədir. Özü də onun yazılarından hiss edirəm ki, cəmiyyətdə baş verən proseslərə də birbaşa münasibət göstərməkdə fəaldır. Qara niyyətli adamlar, bədxahlar, həqiqəti tapdalayanlar onun yaradıcılığının əsas tənqid hədəfləridir. Bu yöndən yanaşma ilə biz bunu da bəri başdan dəqiqliklə deməliyik ki, Sabir Şirvan nəinki mühitimizdə olan bədxahlara qarşı, üstəlik Azərbaycanın tarixi düşmənlərinə qarşı da barışmazdır.

Onun çox sevdiyi doğma şəhəri, sənədli romanından da gördüyümüz kimi, gözəl Cəbrayıldakı doğma evəşiyi uzun illər erməni faşistlərinin işğalı altında qalıb. Bu günlərdə sosial şəbəkədə onun qeydlərinə rast gəldim. Yazırdı ki, Cəbrayıl şəhərindəki evimin içində Dağdağan ağacı bitib.

Dağdağan ağacı maraqlı obrazdır. Azərbaycan xalqı bu ağacı müqəddəs hesab edir. Bizim tarixi düşüncəmizə görə bu ağac harada varsa, oradan təhlükə tez-gec sovuşmalıdır.

İndi Sabir Şirvana burada xatırladıram ki, onun evinin içərisində bitən Dağdağan ağacı ilə bağlı düşüncələrinin çox dərin, qiymətli əsasları var. Axır ki, Azərbaycan ordusu Ali Baş Komandanın qətiyyətli rəhbərliyi ilə böyük Qarabağdan düşməni qovub çıxartdı. Tez-gec Sabir də öz yerinə-yurduna qayıdacaq. Həmin Dağdağan ağacını da tarixi-mənəvi dəyər kimi öpüb oxşayacaq.

Bütün bunlar mənim gələcəyə inamımı daha da möhkəmlədir. İnanıram ki, Sabir kitabında təqdim etdiyi *"Cəbrayıl"* şeirini tamam yeni məzmunda, yeni əhvalda qələmə alacaq.

Amma bütün hallarda hər bir yazılan tarixdir. Biz sevinməliyik ki, insanlar doğma yerlərini, yurdlarını ən qəddar düşmənin işğalı altında olanda belə unutmayıblar. Dostum Əli Rza Xələfli yaxşı deyir ki, ordumuzla birgə, dövlətimizlə birgə düşmənə qarşı döyüşüb. Əlbəttə, şairlər öz şeirləri ilə döyüşüblər. Düşünürəm ki, Sabir Şirvanın *"Cəbrayıl"* şeiri də Cəbrayılı unutmamağımız üçün öz missiyasını axıracan yerinə yetirib:

Hər nə ki, söylədim, sanma yol azdım,
Günəşli bahardım, qəmli payızdım.
Aləmdə hər dürrü ilhamla yazdım,
Acizdir vəsfində qələm, Cəbrayıl.

Sabirə cənnətmiş isti qucağın,
Səndən ayrılalı qızmır ocağım.
Vəfasız həyatdan yox umacağım,
Səni azad görüb öləm, Cəbrayıl.

Mənə elə gəlir ki, şairin sözünün ciddiliyi onun səmimiyyətindən çox asılıdır. Sabir öz yanğılarından od aldığı üçün elə həmin yanğının yaratdığı göynəmlə danışır. Ona görə də *"Səni azad görüb öləm, Cəbrayıl"* deməyinə şəkk gətirmədən inanırıq. Əvvəllər də demişəm, təkrar etsəm dünya dağılmaz ki. Bəlkə də şairlər olmasaydı, vətən bu qədər müqəddəs anlam kəsb etməzdi. Doğrudur, şairlərin vətən anlamının müqəddəsliyi uğrunda mübarizələrinin motivində onların yaradıcılığı dayanır. Söz yox ki, bu barədə indiyə qədər çox deyilib, çox yazılıb. Sabir Şirvanın ədəbi fəaliyyətindən başqa ədəbi-mənəvi mühitimiz üçün çox gərəkli olan ictimai işlərlə də yaxından məşğul olur. O, Dirili Qurbani ədəbi məclisinin fəallarından biri kimi də tanınır.

Onu da deyim ki, Yusif Dirilinin rəhbərliyi ilə Dirili Qurbani ədəbi məclisi 90-cı illərin axırlarından başlayaraq fəaliyyət göstərir. Bu məclisdə müasir şairlərimiz - xüsusilə qarabağlı şairlər ayda bir dəfə toplaşır, ədəbi müzakirələr aparırlar. Onu da deyim ki, bu ədəbi müzakirələrdə Sabir Şirvanın özü də fəal iştirak edir. Burada Azərbaycanın klassik sənətkarlarının anım günləri keçirilir. Eləcə də, məclis üzvləri müasirlərin də görüşlərini təşkil edirlər. Sabir Şirvanın "Söz ömrü" kitabında maraqlı fotoşəkillər də verilib. Həmin fotoşəkillərdən başa düşmək olur ki, Dirili Qurbani ədəbi məclisi onun fəalları sayəsində dövrün mənəvi mühiti ilə həmahəng nəfəs alır. Düşünürəm ki, sənəkar təkcə yaradıcılığı ilə xalqına xidmət etmir, həm də ictimai fəaliyyəti ilə xalqı qarşısında özünün mənəvi borcunu yerinə yetirir.

Bir sözlə, Sabir Şirvanın *"Söz ömrü"* kitabı həm məzmununa, həm də tarixi dəyərinə görə həmişə oxunacaq. Bu kitabı gələcək nəsillər də yaddaş mənbəyi kimi həmişə diqqətdə saxlayacaqlar.

***22.04.2022***